# Sənsizlikdə ölənlər var... var



## Zərdüşt Şəfi

*Hər şey keçib getsə gözün önündə,*
*Hər kəs küsüb getsə ömründən sənin,*
*Bircə ay işığı qalsa səninlə,*
*Bircə göy üzündən dolansa quşlar -*
*Bax, onda sevdalar yenidən başlar...*

***Zərdüşt Şəfi. Gənc Ədiblər Məktəbinin məzunu. 2012-ci ildə 26 yaşında həyatdan nakam getmiş istedadlı nəsr və şeir yazarı. Bugünkü şeir rəngarəngliyi içrə Zərdüştün poetik misralarını tez-tez xatırlayıram. Bu misralarda qəribə bir durulma, məsumluq var. Bütün şairlərin dünya ilə dialoqunun başlanğıc götürdüyü məqamların saflığıdır bu. Onlarda sevgiyə, təbiətə, dünyaya və Tanrıya yanaşma bütövlüyü, həyata baxış hikməti fərqlidir. Bəlkə o qədər kamil deyil, bəlkə cilalanmamış üslubdadır, fəqət fərqlidir, yeni şair nəfəsinin uçuşudur. Məncə, Zərdüşt poeziyada fərqli bir yanaşmanın, ifadə və mənalandırma üsulunun özülünü yaradırdı. Ömür imkan vermədi... Amma "imkan verilənlər"in belə Zərdüştün şair kimi obrazını yaratmağa gücü yetir.***

**E.Akimova**

Səndən sonra həyat elə ömürdü,
Yanıb-yanıb, közü sönmüş kömürdü.
Səndən sonra ürək daşdı, dəmirdi.
İsti-isti döy dəmiri, dəmirçim,
Damar-damar filizlənibdi içim...

Yum gözünü, çıx bir parka, bir otur.
Düşün-daşın, şəklimə bax, xəyal qur...
Ömür gedir - itib gedir işıq, nur.
Sən sönürsən, mən sönürəm, gün batır,
Arzu yoxdu, ümid ölüb, bəxt yatır...

Varlığımda sən adında boşluq var,
Yollarımda sevda adlı daşlıq var,
Bu kitabda bircə sətir başlıq var...

- Mən bilirəm, bəs sən necə?
- De, bilim.
- Mən sevirdim, sən sevmirdin, sevgilim...

* * *

Sən Günəşi görməmisən-
Səni görən görüb onu...
Göyü qübbə bilməmisən-
Səni sevən hörüb onu...
Sən heç zaman gülməmisən,
Həsrətini çəkənlər var...
Sən sevgini bilməmisən-
Şah belini bükənlər var...

...Sən heç zülüm çəkməmisən-
Gözündə yaş görənlər var...
Sən bilmirsən ölüm nədi-
Sənsizlikdən ölənlər var...
Sənsizlikdə ölənlər var...
Sənsizlər var...
Var.

* * *

Su olub axmasa içinə sənin-
bu kəndin havası, suyu, torpağı.
Dəsmal yelləməsə köçünə sənin,
Payız küləyindən solmuş yarpağı-
o kənd sənin deyil,
unut o kəndi!

Baxmasa dalınca məzar daşları,
Baxıb soyuq-soyuq dayanmasalar...
O kəndin qızları sən gedən sabah,
Bir qəflət yuxudan oyanmasalar-
O kənd sənin deyil,
unut o kəndi...

Unut o küçəni, unut o yolu,
arxanca buludlar su atmasalar...
Qonşunun itləri ayaq səsinə
bütün yatanları oyatmasalar,
o kənd sənin deyil,
unut o kəndi...

Nə o ev sənindi, nə o yol sənin...
Xəbərin yoxdu ki, kəndsiz qalmısan...
İçini aparan bir sel önündə
dayaqsız, körpüsüz, bəndsiz qalmısan-
o kənd sənin deyil,
unut o kəndi...

### Şairin ölümü...

Kim unudub məni yol ayrıcında-
gəlsin qucaqlasın,
gəlsin aparsın...

Bu ömrü yolundan çıxarar qəza-
gəlsin qabaqlasın,
gəlsin saxlasın...

Mən ölümə gedən adamam, adam-
yadlara doğmayam,
doğmaya yadam...

Bir göyərçin gəlib, əlimə qonub
Əlimdə bir yuva salıb göyərçin,
Uçub getməyəcək, mənim olacaq,
Sevinib, əlimdə qalıb göyərçin.

Yellədə bilmərəm əlimi daha-
əllərim göyərçin yuvalarıdı-
qatarlar aparsa əzizlərimi...

Üzündə əl izim qalıbsa, gülnar,
məndə əl qalmayıb,
sil izlərimi...

Bağışla ömrümü,
uzun gecədi.
- Bir say ulduzları, bax gör neçədi?
Bildir günəşimə, səs sal ayıma,
Bir gecə qısqanıb məni dənizə
ölüm at ömrümə-
zəhər çayıma...
Mən o gün biləcəm-
O gəlib bizə...
Mən o gün dönəcəm düz kəndimizə...

* * *

Gəl səninlə uzun gedək bu yolu, -
İçimizdə ölçülərin yarışı,
Üzümüzdə gülümsəyən məhəbbət.

Gəl səninlə uzun gedək bu yolu, -
Yol qırağı alma üzüm bağları,
Yol qırağı içimizdən də xəlvət.

Bir az uşaq, bir az qoca, bir az quş,
Bir az oyna, bir az ağla, bir az uç.
Gəl səninlə uzun gedək bu yolu,
Külək gördün qollarını geniş aç...

* * *

Səni gördüyümü unutdum bu gün,
bu gün içimdəki cənnət dağıldı...
Qovuldu Adəmim, qovuldu Həvvam-
bu gün içimdəki meyvə yox oldu...

Gözümə göründü xaraba günbəz,
İçində nə mələk, nə də ki şeytan...
nə duaya çatmaz, nə sözə dəyməz...
Əllərim duada, səsim boğuldu...

Bütün günahlarım oda qalandı,
bütün savablarım itdi üfüqdə...
Neçə cahanları gəzdi, dolandı-
Ruhum bu balaca cismə yığıldı...

* * *

Şirin yuxu deyildi bu...
Niyə yatdın,
Kimi gördün?
Bir böyük insan dənizi,
Orda batan gəmi gördün...

Çalxalandı durulmadı,
Bulanıq insan dənizi...
Çarpışmaqdan yorulmadı-
Batdı insanlıq gəmisi...

* * *

Ölüm durub gözümüzə,
rahat yarışa bilmirik...
Torpaq dəyib dizimizə-
göyə qarışa bilmirik...

İkicə nəfər olmuşuq
və cənnətdən qovulmuşuq...
Allah bağışlayıb bizi,
Bizsə barışa bilmirik...

Böyümüşük boy atmışıq,
Böyük dünya yaratmışıq.
Bu qədər qalxıb, ucalıb
bircə suala çatmışıq:
Ondan soruşa bilmirik...

* * *

Göstər- gözündəki o nə yağışdı,
Saxla- üzündəki bu nə küləkdi.
Möhkəm tut əlində o ümidi də,
silkələ zamanın vaxtsız qızını-
Sevdaymış adı.

Bu aprel sabahı gözünü açma,
unut keçənləri, gələnləri say.
Bircə gözəl belə gözündən qaçmaz-
bilmirsən, bu hissin adı nədi ki?
Bilməsən yaxşıdı,
Sevdaymış adı.

Evinin yerini unudub bahar,
Bu bahar səninmi sinəndən gəlir?
Pis gözlər çıxardan uzun nizə tək
Sinən bu dünyanın bağrını dəlir-
Sus, ey bu dünyanın sinəsi qadın-
Sevdaymış adın.

* * *

Axşam düşür-
üzə çıxır şəhərin qırmızısı...
İşıq ölür-
və bu dərdin tam yarısı...

Evə gəldinmi
çıxart ayağından küçələri,
çıxart gözdən olanları, keçənləri...

Sonra başlar
şəhərin gecə-yası:
- Kim ağlayır,ölən kimdi?
- Bir başqası...

Bir başqası susar
sükutunda ulduzların,
axı gecələr
ad günüdü qızların...

Sənin adın hər kim olsan
yarımçıqdı,
yarımçıqdı və bu yalan
appaçıqdı...

Yuxu kiçik ölüm deyil-
yuxu sənsən,
bir gün orda
ölümünü görəcəksən...

Hələ ki, sus,
işıqların səsi gəlsin,
Hələ ki, sus,
sükut gülsün...

Burax əlini sevdiyin qadının,
gözünü burax...
Bax,
Allah var,
Allah!

* * *

Yuxu tutub gözlərimin yaşını,
Yuxu tutub səni sevən gözümü.
Gücüm çatmır qaldırım eşq daşını.
Əlim çatmır Aydan asım özümü.

Bağışladım məni atıb gedəni,
Alqışladım ayrılığın çıxışın.
Mən sevmədim məni məftun edəni,
Qabaqladım məni üzən baxışı.

Əllərimin sənə həsrət qabarı,
Elə bilmə bu sevgilin darıxmır.
Zaman qıymır mənə bu qış baharı,
Zaman tutub əllərimi buraxmır.

* * *

Düşüblər izimə məni gəzirlər,
İzimdə sən varsan, xəbərləri yox...
Vəsiyyət yazmışam, hey oxuyurlar,
Sözümdə sən varsan, xəbərləri yox...

Deyirlər unudub, boş imiş vədi...
Bu da vəfasızmış, sevgisi yalan...
Deyirlər çörəyi dizi üstədi,
Dizimdə sən varsan, xəbərləri yox...

Məni Tanrılar da qarğayıb nədi?
Dualar getdiyi ünvana çatmaz,
Deyirlər, nə desək, gözü üstədi,
Gözümdə sən varsan, xəbərləri yox...

Yoxdu xəbərləri, onlar bilmirlər,
Kor olub gözləri, onlar bilmirlər...
300 il yaşayır, yenə ölmürlər,
Cüzi ömrüm vardı, onu yaşadım,
Cüzimdə sən vardın, xəbərləri yox…